başlanğıcı 16-cı səhifədə

# Duman çəkiləndə...

*Rais bəy kitabları şox sevir, zəngin kitabxanası var və hansı səfərdə olarsa, kitab alar. Almaniyada olarkən sağlamlıq durumunu öyrənmək üçün zəng etdikdə alman dilini öyrəndiyi cavabını aldım. Harada olursa-olsun, hansı halda olursa-olsun həmişə çalışır. Həm özü, həm də həyatında onunla bir yerdə addımlayan yoldaşı Leyla xanım qonaq dəvət, qəbul etməyi, qonağın qayğısına qalmağı sevəndirlər. Evlərində çox vaxt qonaqlan olur: uzaq rayonlardan gəlib günlərlə qalan da, bir neçə saatlığa gələn də. Onun haqqında yazılanlara, deyilənlərə və şəxsi müşahidələrimə görə deyə bilərəm ki, Rais Rəsulzadə öz istedadı, çalışqanlığı, ağlı, xasiyyəti və davranışı ilə M.Ə.bəy Rəsulzadənin şərəfli, ləyaqətli və layiqli davamçısıdır və mən onunla rastlaşarkən danışanda, nəyisə müzakirə edəndə, haqqında çox oxuduğum Məmməd Əmin bəy Rəsulzadə hər dəfə sanki gözlərim önündə canlanır.*

Çox-çox illər öncəsi radio verilişlərinin birində verilişin qonağı, aparıcı jurnalistin verdiyi suallara məntiqli, dürüst cavabları ilə diqqətimi cəlb etdi: verilişin qonağı Rais Rəsulzadə idi! Bir müddət sonra tədbirlərin birində M.Ə.Rəsulzadə ilə bağlı düşündüklərimi ifadə edən yazılarımı ona verdim və beləliklə də insanlarla ünsüyyət qurmaq bacarığı da olan Rais bəyin emalatxana-sının növbəti qonaqlarından biri oldum. Əlbəttə buradakı bütün əsərlərə baxmağa vaxt kifayət et-məzdi. Rais bəy burada atası Azər bəyin avtoportretini, Topxana, 20 Yanvar, Xocalı facielərin-dən keçirdiyi sarsıntıları rənglərin diliylə ifadə edən əsərlərini, bir sıra portret və təbiət mənzə-rələrin göstərdi. Bu əsərlər sanki həm sadə idi, həm də insanı çox dərinliklərə aparır, bunula da göz və beyin yaddaşına illərlə orada qala biləcək dərəcədə həkk olunurdu, əsrlərlə silinməyən qayaüstü rəsmlər kimi! O təsirlər çox-cox illər sonrası yazının sonundakı şerin yaranmasına səbəb oldu.



Bu il Vətən, millət, insanseverliyinə görə adı vaxtilə onlara çox açılar gətirmiş, son dövrlər isə tədqiqat mövzusuna çevrilmiş M.Ə Rəsulzadənin nəvəsi, tanınmış ziyalı və rəssam, Azərbaycan ADPU-nin dosenti Rais Rəsulzadə yetmiş yaşını fərdi sərgiləri, ona həsr olunmuş yubiley tədbirləri ilə qeyd edir. Bakı İncəsənət Mərkəzində akvarellə işlənmiş əsərlərinin fərdi sərgisi keşirilib, Mədəniyyət və Turizm Nazirliyinin Rəssamlar İttifaqı ilə birlikdə fərdi sərgisinin keçirilməsi nəzərdə tutulur. Türkiyə prezidentinin müşaviri Yalçın Topçu onu təbrik edib. *Öz istedadı, çalışqanlığı, ağlı, xasiyyəti və davranışı ilə M.Ə.bəy Rəsulzadənin şərəfli, ləyaqətli və layiqli davamçısı olan Rais bəyi yubileyi münasibəti ilə ürəkdən təbrik edir, gümrahlıq, möhkəm can sağlığı, yeni-yeni yaradıcılıq uğurları və xoş yubileylər arzu edirik! Tanrı Sizi qorusun!*

## Duman zirvəni bürümüş...

*Rəssamlıq lal poeziya,*
*Poeziya danışan rəssamlıqdır*
**Leonardo da Vinçi**

Çox qəribə bir yerdəyəm.
Uzaq, yaxın tarixdəyəm.
"Azər bəy"-i, "Topxana"-sı,
"20 Yanvar", "Xocalı"-sı.
Güllər də var, yaşıl çəmən
Zirvə, vadi, yovşan burda.
Bu da kənddir, şəlaləsi,
Al laləsi, gur çayı var.
Dumanlı dağ..., zirvəsi ağ..
Duman zirvəni bürümüş,
Rənglər min bir sirri örtmüş...
Yasəmənlər, həm insanlar
Fikrə dalmış, qüssəlidir,
Rənglər yaman kədərlidir.
Bura hara, deyə sorsan:
Duyğu, fikir, düşüncələr
Xəyalların aynasıdır,
Bir rəssamın dünyasıdır!
Yaradıcı ocağıdır,
Rais bəyin odasıdır!